Müəllif
**Beka Kvaçadze**

Müəlliflər qrupu:
**Qiorqi Uqulava,**
**İrakli Peradze**

Metodist
**Lela Kakaşvili**



# TARİX

# 11

I HİSSƏ

## ŞAGİRD KİTABI

Qrif Gürcüstan Təhsil və Elm Nazirliyi
tərəfindən 2023-cü ildə verilmişdir.

სულაკაურის
გამომცემლობა

Tarix 11  I hissə
Şagird kitabı

Müəlliflər: **Qiorqi Uqulava, Beka Kvaçadze, İrakli Peradze, Lela Kakaşvili**
Redaktor **Nino Qoqaladze**
Dizayner **İa Maxatadze**
Texniki dizayner **Qiorqi Lomsadze**

Birinci nəşr, 2023
© Sulakauri nəşriyyatı, 2023
İllüstrasiyalar © **Varlam Cmuxadze** – səh. 103
Kartoqraf © **Murman Melkadze**

Bütün hüquqlar qorunur.
“Sulakauri nəşriyyatı” MMC
Ünvan: Davit Ağmaşenebeli 150, Tbilisi 0112
Tel.: 291 09 54, 291 11 65
El-poçt: info@sulakauri.ge

ISBN 978-9941-37-468-5

History 11 Part 1
Student’s Book

© Sulakauri Publishing, 2023
All rights reserved.

Tbilisi, Georgia
www.sulakauri.ge

# Mündəricat



I mövzu

## Orta əsrlər 6

Hədəf anlayışları

- Vaxt
- Məkan
- Hakimiyyət
- Mənbə
- Cəmiyyət
- Tarixi hadisə/proses

Fəsil 1


### Orta əsrlərdə Roma İdeyası və Səlib yürüşləri dövrü 8

1-2. Makedonlar sülaləsinin hökmranlığından sonra Bizans İmperiyası hansı çətinliklərlə üzləşdi? 10

3-4. Şərqdə güclü Səlcuq Türk İmperiyası necə formalaşdı? 24

5-6. Frank imperiyasının süqutundan sonra Qərbi Avropada Roma ideyası necə bərpa oldu? 38

7-8. Nə üçün XI-XII əsrlərdə dini və dünyəvi hakimiyyətlər bir-birinə qarşı çıxdılar? 55

9-10. Səlib yürüşləri nə üçün başladı? 70

11-12. Birinci Səlib yürüşü Avropanı və Şərqi necə dəyişdi? 88

13-14. Səlib dövrü hansı mühüm hadisələrlə səciyyələnir? 105

15-16. Avropada şəhərlərin xüsusi inkişafına hansı amillər dəstək verdi? 126


Hədəf anlayışları

- Məkan
- Cəmiyyət
- Vaxt
- Hakimiyyət
- Cəmiyyət
- Tarixi hadisə/proses

Fəsil 2


### XIII-XIV əsrlərdə Avropa və Şərq dünyası 152

17-18. Monqol istilaları şərq dünyasını necə dəyişdi? 154

19-20. Osmanlı dövləti necə yüksəldi? 174

21-22. XIII-XIV əsrlər Avropası necə dəyişdi? 189

23-24. TeymurLəng vahid Monqol İmperiyasını bərpa etməyə necə cəhd etdi? 207




# I mövzu
## Son orta əsrlər və erkən yeni dövr 228

**Hədəf anlayışları**

- Cəmiyyət
- Məkan
- Tarixi hadisə/proses
- Cəmiyyət
- Mənbə
- Vaxt

FƏSİL 3

### Orta əsrlərdən yeni dövrə qədər (XV-XVI) 230

**25-26. Osmanlı türkləri Bizans imperiyasını necə məhv etdi? 232**

**27-28. Humanizm və intibah dövrü Avropa dünyasını necə dəyişdi? 248**

**29-30-31. Böyük coğrafi kəşflər necə və nə üçün başladı? 265**

**32-33. Avropada protestant islahatı nə üçün başladı? 291**

**34-35. XVI əsr Avropa və Yaxın Şərqdə hansı mühüm hadisələrlə xarakterizə olunurdu? 310**

**Hədəf anlayışları**

- Hakimiyyət
- Cəmiyyət
- Məkan
- Tarixi hadisə/proses
- Mənbə

FƏSİL 4

### Avropada və Şərqdə mütləqiyyət dövrü 340

**36. Hollandiya inqilabı Avropa monarxiyalarına necə təsir etdi? 342**

**37-38. Otuz illik müharibə (1618-1648) nə üçün Avropada başladı? 351**

**39. Nə üçün İngiltərədə kralla parlament arasında vətəndaş müharibəsi başladı? 370**

**40. Fransada mütləq monarxiya necə formalaşdı? 384**

**41. İranda Səfəvilər sülaləsi necə möhkəmləndi? 403**

**42. I Pyotr qədim Rusiyanı necə Avropa dövlətinə çevirdi? 412**



# I mövzu
## Uzun XIX əsr 428

Hədəf anlayışları

- Hakimiyyət
- Cəmiyyət
- Məkan
- Tarixi hadisə/proses
- Vaxt


### Fəsil 5 Dünya inqilablar və böyük dəyişikliklər dövründə 430

43-44. Maarifçilik Qərb dünyasını necə dəyişdi? 432

45-46. Amerika Birləşmiş Ştatları necə yarandı? 447

47-48. İnqilab Fransanı necə dəyişdi? 467

49-50-51. Napoleon Avropa tarixini necə dəyişdi? 489


Hədəf anlayışları

- Tarixi hadisə/proses
- Məkan
- Cəmiyyət


### Fəsil 6 Vyana Konqresi və Britaniya Sülhü dövründə Avropa 526

52-53. Sənaye inqilabı dünyanı necə dəyişdi? 528

54-55. Nə üçün XIX əsr Britaniya İmperiyasının şöhrət dövrü hesab olunur? 543

56-57. Rusiya necə Şərqdə əsas siyasi qüvvəyə çevrildi? 557

58-59. 1848-ci il və Krım müharibəsi Avropa reallığını necə dəyişdi? 573


Hədəf anlayışları

- Tarixi hadisə/proses
- Cəmiyyət
- Məkan
- Mənbə
- Hakimiyyət


### Fəsil 7 Qlobal dəyişikliklər dövrü 594

60-61. Romantik millətçilik nə üçün vahid İtaliyanın yaranmasına səbəb oldu? 596

62-63-64. Nə üçün Amerikada vətəndaş müharibəsi başladı? 610

65-66. XIX əsrdə Yaponiya və Çin necə inkişaf etdi? 631

67-68. Almaniyanın birləşməsi Avropanı necə dəyişdi? 648

I mövzu

# Orta əsrlər


Fəsil 1 **Orta əsrlərdə Roma İdeyası və Səlib yürüşləri dövrü** **8**

Fəsil 2 **XIII-XIV əsrlərdə Avropa və Şərq dünyası** **152**






Qüdsdə (Yerusəlimdə) Lüteran kilsəsinin tavanında qədim Yerusəlim
və səlibçi kralların təsviri

FƏSİL

1

Tarixə addım atın – Səlib dövrü və Qüdsün ilk mühasirəsi haqqında videoya baxın.

# Orta əsrlərdə Roma İdeyası və Səlib (xaçlı) yürüşləri dövrü

X-XI əsrlərdə Avropada və Şərq dünyasında bir sıra mühüm tarixi proseslər baş verdi. Avropada frankların nəhəng imperiyasının süqutu nəticəsində ortaya çıxan yeni siyasi qurumlar fərqli inkişaf yolu ilə davam edirdilər. Şərq dünyasında da nəhəng imperiya parçalandı – X əsrdə Bağdad xilafəti son olaraq müxtəlif siyasi vahidlərə bölündü. Bu dövrdə normanların və madyarların (macarların əcdadları) Avropa qitəsinə basqınları feodal quruluşunun son olaraq formalaşmasına şərait yaratdı.

X-XI əsrlərdə Şərqdə yeni bir qüvvə meydana çıxdı - Orta Asiya çöllərindən gələn türklər Şərq dünyasının siyasi vəziyyətini tamamilə dəyişdilər. Onlar Bizans İmperiyasının çox hissəsini işğal etdilər və bölgədə hesablaşa biləcək qüvvəyə çevrildilər.

XI əsrin sonlarında xristianlar tərəfindən əsas məqsədi müqəddəs torpaqların müsəlmanların əlindən azad edilməsi elan edilən Səlib (xaçlı) yürüşləri kimi tanınan hadisə başladı. Avropa, xristian dünyasının həyata keçirdiyi səlib yürüşləri, hərbi qarşıdurmaya baxmayaraq, iki dünyanı iqtisadi və mədəni baxımdan bir-birinə yaxınlaşdırdı.

Bu fəsildə siz Böyük Karl imperiyasının dağılmasından sonra Avropa dünyasının necə dəyişdiyini; Papa və İmperatorun bir-birinə qarşı necə çıxdığını; səlcuq türklərinin kim olduğunu; səlib yürüşlərinin nə üçün başladığını və Avropa şəhərlərinin hansı xüsusiyyətləri ilə seçildiyini öyrənəcəksiniz.

**Müqəddəs Mələk qəsri, Roma**






**Əsas hadisələr**



**Xaçlı cəngavər təsviri olan medalyon, XIV əsr**

## KOMPLEKS TAPŞIRIQ 1

### Səlib yürüşləri haqqında hesabat

Təsəvvür edin ki, XI əsrdə Papa sarayında fəaliyyət göstərən alim və Papanın müşavirisiniz. Səlib yürüşlərini başlamaq fikrinə gəlmisiniz. Səlib yürüşlərinin nə vaxt və niyə başlaması, Səlib yürüşlərinin məqsədinin nə olması və bunun bir tərəfdən, Papa hakimiyyətinə, digər tərəfdən isə Avropa dünyasına nələr gətirəcəyini göstərən yazılı hesabatı Papaya təqdim edin.

**İşinizi təqdim etdikdə xüsusilə göstərməlisiniz:**

- Səlib yürüşünün həyata keçirildiyi məkanı və coğrafi mühiti təsvir edin; bu məkanın Avropa dünyası üçün iqtisadi, mədəni və dini əhəmiyyətini ayırın; *(məkan, əs.təs. 1, 3)*
- Papanın Səlib yürüşlərində nə kimi rolu olmalıdır və bu da Papa hakimiyyətinə necə təsir edəcək; *(hakimiyyət, əs.təs. 2, 3, 4)*
- Bizansın və türk dünyasının həmin dövrdəki vəziyyətini təsvir edin və xaçlıların uğuruna hansı amillərin təsir edəcəyini müzakirə edin; *(məkan, əs.təs. 2, 3)*
- Səlib yürüşləri xristian məkanına hansı iqtisadi və siyasi faydalar gətirəcək. *(məkan, əs.təs. 1,3)*

**Anlayış**

- hakimiyyət
- məkan
- mənbə

Şagird dəftərində işlənir

# 1-2. Makedonlar sülaləsinin hökmranlığından sonra Bizans İmperiyası hansı çətinliklərlə üzləşdi?

▶ **Anlayış:**

vaxt, tarixi hadisə/proses.

▶ **Əsas sual:**

Nə üçün Bizans İmperiyası XI əsrin çətinliklərinin öhdəsindən gələ bilmədi?

▶ **Annotasiya:**

Makedonlar sülaləsini təmsil edən imperatorların dövründə imperiya əvvəlki əsrlərdə yaranmış problemləri müvəqqəti həll edə bildi. İmperator II Vasilinin hakimiyyəti inzibati islahatlar, eləcə də Balkanlarda və şərq sərhədlərində uğurlu hərbi yürüşlərlə yadda qaldı. Makedonlar imperatorlarının məqsədi Bizansda möhkəm sülalə hakimiyyəti qurmaq olsa da, buna nail ola bilmədilər. II Vasilinin ölümündən sonra imperiya tənəzzülə uğramağa başladı və bu, bir çox problemlərə səbəb oldu. XI əsrin ortaları hökmdarların tez-tez dəyişməsi, əyalət ərazilərinin hakimləri ilə mərkəzi hökumət arasında hərbi qarşıdurmalarla xarakterizə olunurdu. Sərhədin hər tərəfində vəziyyət çətinləşmişdi - şərq sərhədlərində türklər, Balkanların şimalında peçeneqlər, qərbdə isə italyan normanları fəallaşmışdılar. Məhz bu dövrdə Bizans İmperiyası üçün ən dağıdıcı proses başladı, türk ünsürü Anadoluya ayaq basdı.

Bu paraqrafdan siz Makedonlar sülaləsinin hökmranlığından sonra imperiyanın hansı problemlərlə üzləşdiyini; Bizans İmperiyasının şərq vilayətlərini necə itirdiyini; mövcud problemləri həll etməyə çalışan Aleks Komninin imperiyanın başına necə keçdiyini öyrənəcəksiniz.

**"Komninlər zəfər çalana qədər imperiya illər boyu xaos içində idi, zəngin ailələr taxt uğrunda bir-biri ilə mübarizə aparırdılar".**

*Teodor Skutariot, XIII əsr. Xronika*

## Makedonlar sülaləsinin sonrakı dövrünün mühüm xüsusiyyətləri nə idi?

Makedonlar sülaləsinin hakimiyyəti sona çatdıqdan sonra Bizans İmperiyasında daxili təxribatlar və müharibələrlə dolu bir dövr başladı. Sözügedən dövr imperatorların tez-tez dəyişməsi və əyalətlərlə paytaxt arasında qarşıdurmalarla xarakterizə olunurdu. 1025-1081-ci illərdə taxtda 13 imperator dəyişdirildi. Makedonlar sülaləsinin hakimiyyətindən sonra nüfuzlu Bizans sülalələrinin nümayəndələri və hərbi sərkərdələr taxt-tac uğrunda bir-biri ilə vuruşdular. İmperatorların tez-tez dəyişməsi imperiya hakimiyyətinin mərkəzsizləşməsinə səbəb oldu. İmperatorların əksəriyyəti hərbi çevrilişlər və qəsblər yolu ilə taxt-tacı ələ keçirir və bundan sonra öz hakimiyyətlərini bərkitmək üçün döyüşməli olurdular.

Makedonlar sülaləsi dövründə imperatorlar bürokratik aparatdan dayaq kimi



istifadə etməyə və ordunun təsirini azaltmağa çalışırdılar. Bu dövrdə isə ordu öz nüfuzunu bərpa etdi, buna uyğun olaraq, ordunun dəstəyini qazanan şəxs taxt-tacı ələ keçirə bilərdi. Əyalətlərdə və sərhədlərdə vəziyyət daha da kəskinləşmişdi. İmperiya ciddi problemlər qarşısında dururdu.

**Bürokratiya**

İdarə və bölmələr vasitəsilə dövlətin hökumət tərəfindən idarə edilməsi, təyin olunan vəzifəli şəxslər idarəetmədə iştirak edirlər.

**Mənbə 1**

**Maykl Anqold, müasir britaniyalı bizansoloq**

“Bu dövrdə daxili siyasətin əsas xüsusiyyəti hərbi təbəqənin nümayəndələri və torpaq sahibi olan mülkədarların mərkəzi bürokratik aparatın məmurları ilə qarşıdurması idi. Əyalətlərlə paytaxt arasında gedən mübarizə ordunun və mülkədar aristokratiyanın qələbəsi ilə başa çatdı. Ordu yenidən lider mövqedə idi”.

**Tapşırıq**

**1 Müzakirə edin**

Makedonlar sülaləsinin və onun sonrakı imperatorlarının hökmranlığı nəyə əsaslanırdı? Hansı ictimai qruplara?

**2 Müzakirə edin**

Bizans İmperiyasında böhranın yaranmasına hansı amillər səbəb oldu?

Bu dövr imperiyanın gələcək inkişafına həlledici təsir göstərmiş mühüm tarixi hadisələrlə əlamətdardır. Onların arasında iki mühüm hadisəni qeyd etmək lazımdır.

**Böyük rezonansa səbəb olan hadisələr**

- **Böyük dini təfriqə - qərb və şərq xristian aləmi arasında parçalanma və bölünmə**
- **Səlcuq türklərinin şərqdə fəallaşması, Manazgird döyüşü və Kiçik Asiya əyalətlərinin itirilməsi**

1054-cü ildə Roma və Konstantinopol kilsələrinin birliyi son olaraq pozuldu. Latın və Yunan xristianlığı, bir çox səbəblərə görə, əsrlər boyu bir-birindən yavaş-yavaş uzaqlaşırdı. Roma İmperiyasının iki yerə bölünməsindən (395-ci il) və Qərbi Roma İmperiyasının süqutundan (476-cı il) sonra Qərb və Bizans dünyası fərqli şəkildə inkişaf edirdi. Onların arasındakı siyasi və dini əlaqələr əsrlər boyu daha çox formal xarakter daşıyırdı, 1054-cü il parçalanması isə bu iki xristian aləminin uzaqlaşmasının uzunmüddətli prosesinin məntiqi sonu oldu. Kilsələrin birliyi buna qədər yalnız formal olsa da, XI əsrdən etibarən bu da yox oldu.

Həmin dövrdə imperiyanın şərq sərhədlərində yavaş-yavaş türklər fəallaşmağa

başladılar. XI əsrin ikinci yarısında səlcuq türkləri fəallaşdı və onların qarşısını almaq imperiyanın əsas məsələsinə çevrildi.

Makedonlar sülaləsi dövründə şərq sərhədlərində qarşıdurmalar tez-tez baş verirdi, II Vasilinin dövründə Bizans imperiyası erməni torpaqlarını işğal edərək, Gürcüstan çarlığına qarşı müharibədə uğur qazanır. Bizansla Gürcüstan çarlığının parçalanmasının əsas səbəbi tarixi Tao torpaqları olan Cənubi Gürcüstan idi. II Vasili Gürcüstanda çar I Qiorqiyə (1014-1027-ci illər), onun varisləri isə IV Baqrata (1027-1072-ci illər) qarşı yürüş etdilər. Eyni zamanda Bizans gürcü feodallarından çar hökumətinə qarşı istifadə etməyə çalışırdı. Bizans Gürcüstanı, xüsusən də Gürcüstanın qərb hissəsini öz təsir və maraq dairəsi hesab edirdi, vahid Gürcüstan çarlığı isə regionda öz mövqelərini möhkəmləndirməyə çalışırdı. Bu müharibələr nəticəsində Bizans İmperiyası möhkəm inzibati sistem yarada və bu torpaqları tam şəkildə İmperiyaya birləşdirə bilmədi. Məhz bu zaman Səlcuq türkləri meydana çıxdı və Bizans imperiyasının şərq vilayətlərindəki bütün problemlər birlikdə ortaya çıxdı.

**XI əsrdə Bizans İmperiyasının üzləşdiyi problemlər**

| | |
|---|---|
| **Mərkəzi hakimiyyətin zəifləməsi** | **Qərb xristianlığı ilə böyük təfriqə (parçalanma) və qarşıdurma** |
| **Nüfuzlu sülalələr arasında hakimiyyət uğrunda mübarizə** | **Son zamanlar işğal olunmuş torpaqlarda qeyri-sabit vəziyyət** |
| **Ordu ilə bürokratik aparat arasında qarşıdurma** | **Bütün sərhəd boyu hücumlar qərbdən normanlar, şimaldan peçeneqlər, şərqdən türklər** |

**Tapşırıq**

**3 Müzakirə edin**

Sözügedən dövrün xüsusiyyətlərini sadalayın və onun Bizans İmperiyası üçün əhəmiyyətini qiymətləndirin.

**4 Müzakirə edin**

Bizans tarixində müxtəlif dövrləri nəyin əsasında ayırmaq olar?



## Anadoluda türklərin aktivləşməsi Bizans imperiyasına hansı nəticə gətirdi?

X-XI əsrlərdə Yaxın Şərqin siyasi meydanına səlcuq türkləri çıxdılar və siyasi vəziyyəti tamamilə dəyişdilər. Bağdad xilafətinin hərbi dayaqları məhz türklər olduqları üçün, bundan əvvəl də Bizansda və Şərqdə tanınırdılar. VI əsrdən etibarən türk muzdlularının Bizans ordusunda döyüşməsi halları qeydə alınır. XI əsrin 40-cı illərindən türk problemi Bizans imperiyasının əsas probleminə çevrildi və ən əsası, bu hadisə imperiyanın hərbi-inzibati sahədə yaşadığı bütün çətinlikləri və qüsurları açıq şəkildə ortaya qoydu. Türklərin kiçik dəstələri 1038-1042-ci illərdə imperiyanın şərq əyalətlərinə bir neçə dəfə hücum etmişdilər. Bunun dəfələrlə baş verdiyinə görə, İmperator sarayında buna o qədər də əhəmiyyət vermirdilər və problemin həlli şərq əyalətlərinin hökmdarlarının öhdəsinə buraxılırdı.

**Mənbə 2**

**Aleksandr Bayhamer, müasir avstriyalı bizansoloq**

“Səlcuq türkləri imperiyanın şərq əyalətlərinə bir neçə dəfə hücumlar etmişdilər. Bu, birdəfəlik hadisə olmasa da, onların bu hücumları həmin dövrün Bizans əsərlərində öz əksini tapmamışdır. O dövrün mühüm xəbərlərini təsvir edən mənbələr bizə Konstantinopolda nüfuzlu qruplar arasında davam edən qarşıdurmalardan xəbər verir. Türklərin Şərqdə peyda olması isə mühüm hadisə sayılmırdı ki, xronika müəllifləri buna diqqət yetirsinlər, imperatorlar isə bunu siyasi gündəmə gətirsinlər. Bizans dünyası paytaxtda daxili çəkişmələrlə məşğul ikən, şərqdə əsas təhlükə güclənirdi”.

Səlcuq türkləri bir neçə qrup halında hərəkət edərək, Suriya və İraq ərazisində möhkəmlənməyə çalışırdılar, çünki bu məkan iqtisadi cəhətdən ən inkişaf etmiş

**Bizans İmperiyası 1054-cü ildə** **1**

